2017-ci ilin yanvar-may aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 5651,3 min ton yük, 36829 min nəfər sərnişin daşınmışdır. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,7 faiz, sərnişin daşınması 2,2 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 21075,5 min manat gəlir əldə edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,9 faiz, sərnişin daşınması 1,7 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 1,6 faiz artmışdır.